# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏBİƏTİ

**Elvin Qarayev**

*AMEA-nın Şəki Regional Elmi Mərkəzi*
*elvin_qarayev_1993@mail.ru*

Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu illərdə digər sahələrdə olduğu kimi, respublikamızın ətraf mühiti, ekoloji vəziyyəti ilə daim maraqlanmış və bu sahələrə diqqəti daha çox artırmışdır.

Ulu Öndər deyirdi: "Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən elə bildim ki, məni yaralayıblar". "İnsan qurmalıdır, yaratmalıdır". "Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir". "Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız".

Ekoloji sahədə görülən işləri nəzərdən keçirəndə aydın başa düşmək olur ki, Ulu Öndər Heydər Əliyevin o illərdəki fəaliyyətinin əsas məğzi təbiəti gələcək nəsillər üçün qoruyub saxlamaq, insanların mədəni səviyyəsini və həyat tərzini yüksəltmək olmuşdur. Ətraf mühitin mühafizəsi qlobal bir anlayışdır və zamanın tələbləri ilə yaranmışdır. Ona görə müasir dövrdə hamımız birlikdə ekoloji tarazlığın qorunması üçün birlikdə fəaliyyət göstərərək bu sahədə müəyyən işlər görməliyik.